İğdır

*31 Mart - Azərbaycanlıların Soyqırımı Günü Azərbaycan tarixinin ən faciəli və qanlı səhifələrindən biridir. 1918-ci ilin mart-aprel aylarında erməni daşnakları tərəfindən Bakıda, eləcə də Azərbaycanın müxtəlif bölgələrində minlərlə dinc əhali amansızcasına qətlə yetirilmiş, yaşayış məntəqələri yandırılmış, tarixi və mədəni abidələr məhv edilmişdir.*

maxının özündə 7 mindən çox insan, o cümlədən 1653 qadın və 965 uşaq amansızcasına öldürüldü. Şamaxı Cümə Məscidi daxil olmaqla bir çox tarixi abidə yandırıldı və dağıdıldı.

1918-ci ilin aprel-may aylarında erməni silahlı dəstələri Quba qəzasında da soyqırımı törətdilər. Burada 16 mindən çox insan qətlə yetirildi, 167 kənd tamamilə dağıdıldı. 2007-ci ildə Qubada aparılan arxeoloji qazıntılar zamanı kütləvi məzarlıq aşkar edildi ki, bu da erməni qətliamlarının sübutlarından biri oldu.



mənçiliyindən əziyyət çəkən yüz minlərlə insanın faciəsinin rəmzidir", - deyən TADDEF-in sədr müavini, müasir Ermənistanın öz doğma yurdundan zorla qovulmuş azərbaycanlıların tarixi torpaqlarında süni şəkildə yaradıldığını diqqətə çatdırıb. S.Ünsal xatırladıb ki, bir əsr əvvəl Qərbi Azərbaycanın heç bir yerində ermənilər əhalinin əksəriyyətini təşkil etmirdi. "Bu, məlum faktdır!

# 107 ildir sağalmayan yara

1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti 31 mart tarixini Azərbaycanlıların Milli Matəm Günü elan etmişdir. Lakin sovet dövründə bu hadisələr uzun illər gizlədilmiş və bu barədə danışmaq qadağan olunmuşdur. Yalnız müstəqillik əldə edildikdən sonra hökumətimiz bu tarixi ədaləti bərpa etmiş, 1998-ci ildə prezident Heydər Əliyevin sərəncamı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi rəsmi şəkildə qeyd olunmağa başlamışdır.

Birinci Dünya müharibəsi dövründə və Rusiya imperiyasının çöküşündən sonra Cənubi Qafqazda siyasi və etnik münaqişələr daha da kəskinləşmişdi. Bolşeviklərin hakimiyyəti ələ keçirməsi və erməni millətçilərinin bu hakimiyyətdən istifadə edərək azərbaycanlılara qarşı cinayətlər törətməsi vəziyyəti daha da ağırlaşdırmışdı.

1918-ci ilin mart ayında Bakı Sovetinin başında duran Stepan Şaumyanın rəhbərliyi ilə erməni silahlı dəstələri "Daşnaksütyun" partiyasının üzvləri ilə birlikdə Azərbaycan xalqına qarşı kütləvi qırğınlara başladılar. Onlar bolşevik inqilabını bəhanə edərək azərbaycanlı əhaliyə qarşı soyqırımı həyata keçirdilər.

1918-ci il martın 30-dan aprelin 2-dək Bakı şəhərində üç gün ərzində dinc əhaliyə qarşı misli görünməmiş qətllər törədildi. Erməni-bolşevik qüvvələri məscidlərə, evlərə, məktəblərə hücum edərək insanları diri-diri yandırır, küçələrdə qadınları və uşaqları qətlə yetirirdilər. Həmin hadisələr zamanı Bakıda 12 minə yaxın azərbaycanlı öldürüldü.

Bakı şəhərində baş verən qırğınlarla yanaşı, erməni silahlı qüvvələri Azərbaycanın digər bölgələrinə də hücum etdilər.

Mart-aprel aylarında Şamaxı qəzasında erməni silahlı dəstələri 58 müsəlman kəndini yerlə-yeksan etdilər. Şa-



1918-ci ilin yazında erməni silahlı birləşmələri Qarabağ və Zəngəzur bölgələrində 150-dən çox kəndi yandıraraq 10 mindən çox azərbaycanlını qətlə yetirdilər. Naxçıvanda isə 50-yə yaxın kənd dağıdıldı və əhali kütləvi qırğına məruz qaldı.

Bu qanlı tarix qısa fasilələrlə bütün XX əsr boyu dönə-dönə təkrarlandı. İndi o qanlı tarixdən düz 107 il ötür. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan bu qədər vaxt ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqımızın qan yaddaşında əbədi iz buraxıb. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırımı və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişləndi. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri etnik qırğın Bakıda, Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndlərin talan edilərək dağıdıldığını sübut edir.

"31 Mart Azərbaycan tarixində milli yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bizim Azərbaycan xalqının erməni millətçiləri tərəfindən məruz qaldığı tarixi haqsızlıqları dünya ictimaiyyətinə çatdırmaq, beynəlxalq səviyyədə tanınmasını təmin etmək və Azərbaycanlıların soyqırımı aktlarına məruz qalması barədə dünya ictimaiyyətini tez-tez məlumatlandırmağımız çox vacibdir. Biz ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi qanlı cinayətləri unutmayacaq və unutdurmağa da əsla imkan verməyəcəyik". Bu fikri açıqlamasında **Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının (TADDEF) sədr müavini, İğdır Azərbaycan Evi Dərnəyinin sədri Serdar Ünsal** vurğulayıb.

Onun sözlərinə görə, 1918-ci il martın 31-də Azərbaycanda baş verən hadisələr ermənilərin Azərbaycan və türk xalqlarına qarşı nifrətlə dolu qanlı vəhşilikləri silsiləsinin daha bir həlqəsi olub. "31 Mart tarixi ermənilərin düş-

Mənim nənəm də 1920-ci ildə erməni vəhşiliyindən canını qurtararaq İrəvanı tərk etməyə məcbur olub. Türkiyə və Azərbaycan vətəndaşlarının gənc nəsli tarixi bilməli və düzgün nəticə çıxarmalıdır", - deyən S.Ünsal bu gün Ermənistanda bir nəfər də olsun azərbaycanlının qalmadığından təəssüfləndiyini bildirib.

O qeyd edib ki, ermənilər Azərbaycan xalqının irs yaddaşını silmək məqsədilə, hətta qəbiristanlıqları da dağıdıblar. TADDEF-in sədr müavini Cənubi Qafqazın tarixi haqqında dünyanın müxtəlif ölkələrində ictimaiyyətin məlumatlandırılmasının vacibliyini vurğulayıb, xüsusilə bu istiqamətdə 1998-ci il martın 26-da Azərbaycanlıların Soyqırımı Gününün təsis edilməsi haqqında Sərəncam imzalayan ümummilli lider Heydər Əliyevin siyasətinin əhəmiyyətini xüsusi qeyd edib. O deyib: "Biz qanlı cinayətlərdən, o cümlədən Xocalı soyqırımından danışmalıyıq. Erməni miflərinin məhv edilməsində xüsusi rol onların yalanlarına qarşı effektiv mübarizə aparmağa borclu olan diaspor təşkilatlarına məxsusdur".

S.Ünsal sonda vurğulayıb ki, 1918-ci il martın 31-də baş vermiş qırğınlar Azərbaycan tarixinin ən ağrılı səhifələrindən biridir. Bu hadisələr təkcə bir xalqın faciəsi deyil, həm də insanlığa qarşı böyük cinayət kimi qiymətləndirilməlidir. Bu faciənin unudulmaması və gələcək nəsillərə ötürülməsi tarixdən ibrət götürmək və oxşar hadisələrin bir daha təkrarlanmaması üçün böyük əhəmiyyət kəsb edir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 2 aprel (№62).- S.16.